# Qəbələ III Beynəlxalq Mürəbbə Festivalı

## Qəbələ tarixi anlarını yaşamaqdadır

Qəbələ bu gün XXI əsrin ilk ilinin tarixinə silinməz izlər qoyan yollarda inamla addımlayır. Son iki ay ərzində üç möhtəşəm beynəlxalq tədbirə ev sahibliyi edən bu tarixi diyarın nüfuzunun aydan-aya, ildən-ilə artır. Füsunkar təbiəti, gözəlliyi, mehriban insanları ilə seçilən bu tarixi diyarda keçirilən bir sıra beynəlxalq tədbirlərə, mədəniyyət və incənət tədbirlərinə, simpoziumlara, forumlara, elmi konfranslara, idman üzrə yarışlara müxtəlif ölkələrindən gələn çoxsaylı insanlar Qəbələyə heyran qaldıqlarını dönə-dönə qeyd etmişlər.





Qəbələnin vaxtilə də, yəni eramızdan əvvəl III-I və eramızın I-V əsrlərində Qədim Alban dövlətinin 500 il paytaxt şəhəri olanda da dünyada tanınan Babil, Troya, Pompey, Karfagen kimi şəhərlərlə siyasi-iqtisadi, mədəniyyət və ticarət əlaqələri olmuşdur. Bu gün müasir Qəbələnin də dünyanın bir sıra ölkələri ilə mədəni, ticarət və iqtisadi əlaqələri genişlənməkdədir. Təkcə Qəbələ meyvə konservi zavodu dünyanın 30 ölkəsinə öz istehsalı olan məhsullarını ixrac edir. Qəbələ şəhəri 2013-cü ildə MDB ölkələrinin «Mədəniyyət paytaxtı», 2014-cü ildə isə «Əfsanələr paytaxtı» elan olunmuşdur. Bütün bunlar göstərir ki, Qəbələ əsrlərin arxasında qalan tarixi şöhrətini qaytarmaq yollarında inamla addımlayır.

**(Ardı 3-cü səhifədə).**

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin Qəbələ III Beynəlxalq Mürəbbə Festivalında çıxışı

**Hörmətli festival iştirakçıları!**
**Xanımlar və cənablar!**

Dünya festivalları tarixində özünəməxsusluğu və məzmunu ilə seçilən Qəbələ III Beynəlxalq Mürəbbə Festivalında Sizi ürəkdən salamlayır, hörmətli qonaqlarımıza xoş gəlmisiniz deyir, hər birinizə ən xoş arzularımı bildirirəm!

**Əziz dostlar!**

Azərbaycanın iqtisadi yüksəlişi, ölkədə sosial proqramların uğurlu icrası, regionların davamlı inkişafı, adamların rifahının yaxşılaşdırılması və bütün bu strategiyanın əsasında insan amilinin dayanması hər birimizi fərəhləndirir. Bu günkü sürətli sosial-iqtisadi inkişaf, ümummilli liderimiz Heydər Əliyevin dahiyanə şəkildə müəyyənləşdirdiyi siyasi kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən böyük məharət və uğurla davam etdirilməsinin məntiqi nəticəsidir. Ölkə başçısının gərgin əməyi nəticəsində iqtisadiyyatın Azərbaycan modeli dünya səviyyəsində öz təsdiqini tapmış və böyük inkişaf mərhələsi keçmişdir.

Bütün bu nailiyyətlər, ölkəmizin inkişafına, Azərbaycan xalqının milli maraqlarının müdafiəsinə yönəlmişdir. İslahatların daha da dərinləşməsi, ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, xalqın həyat səviyyəsinin ilbəil yüksəldilməsi, müstəqil ölkəmizin dünya birliyində layiqli yer tutması, xalqımız tərəfindən böyük razılıq hissi ilə qarşılanır.

Bu gün respublikamızda, eləcə də rayonumuzda nəhəng abadlıq-quruculuq işləri aparılır. Qəbələ sürətlə inkişaf edir, burada yeni infrastruktur layihələri həyata keçirilir.

Dünyanın tanınmış siyasətçilərinin iştirakı ilə Qəbələdə təşkil olunan forumlar, sammitlər, beynəlxalq idman yarışları, musiqi festivalları, incəsənət sərgiləri və digər qlobal tədbirlər qeyd etdiyimiz sosial-iqtisadi inkişafın təntənəsi və təcəssümüdür.

Qəbələ rayonu respublika əhəmiyyətli bütün layihələrdə hər il yaxından iştirak edir, bir sıra mütərəqqi və yeni layihələrin müəllifi və təşkilatçısı missiyasını yerinə yetirir. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin “Bölgələrdən paytaxta” layihəsi əsasında bu il mart ayının 2-də Bakı şəhərində keçirilən “Qəbələ Günü”ndə rayon mədəniyyət işçilərinin geniş konserti olmuş, Qəbələnin sosial-iqtisadi inkişafını, zəngin və qədim tarixini, mədəniyyətini, adət-ənənələrini, mətbəx nümunələrini, dekorativ-tətbiqi sənət ustalarının əl işlərini, bölgənin turizm imkanlarını əks etdirən sərgi təşkil edilmişdir.



2015-ci ilin iyul-avqust aylarını isə sözün həqiqi mənasında Qəbələnin ”beynəlxalq tədbirlər aylığı” adlandırmaq olar. Bu il iyul ayının 25-dən 31-dək Heydər Əliyev Fondunun prezidenti, YUNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə Qəbələdə VII beynəlxalq musiqi festivalı keçirilmişdir.

Daha sonra avqustun 6-dan 16-dək “Qəbələ Atıcılıq Kompleksi”ndə dünyanın 100-ə yaxın ölkəsinin idman komandalarının iştirakı ilə atıcılıq üzrə Dünya Kuboku yarışlarının final mərhələsi, avqustun 7-dən 15-dək Azərbaycan Mədəniyyəti Fondunun təşəbbüsü, Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının (SEBA) təşkilatçılığı ilə “Koreya Kinosu Festivalı” keçirilmişdir.

Məlumat üçün bildirirəm ki, hazırda Koreyanın Qyonqcu şəhərində “Qyonqcu İpək Yolu” adlı festival keçirilir. Festivalda 25-30 avqust tarixləri “Azərbaycan Günü” elan edilmişdir. Bu gün Azərbaycanın nümayəndə heyyətinin tərkibində Qəbələ rayonunun incəsənət ustaları da festival tədbirlərində iştirak edirlər.

**Əziz dostlar!**

Qəbələdə keçirilən bütün beynəlxalq tədbirlər, eləcə də bu gün birlikdə keçirdiyimiz Qəbələ III Beynəlxalq Mürəbbə Festivalı ölkəmizdəki sosial-iqtisadi və mədəni inkişafın təntənəsi və davamı kimi səciyyələndirilə bilər.

2013-cü ildə dünyada ilk dəfə Qəbələdə təşkil olunmuş Qəbələ I Mürəbbə Festivalında respublikanın 8 rayonunun, ötən il 21 rayonunun kulinarları iştirak edirdisə, artıq bu gün beynəlxaq səviyyədə keçirilən Qəbələ III Beynəlxalq Mürəbbə Festivalına bir sıra beynəlxalq ekspertlər gəlmiş, sərgi və müsabiqəyə isə respublikanın 29 rayonundan, eləcə də 6 xarici ölkədən peşəkar kulinarlar qatılmışlar.

**Hörmətli festival iştirakçıları!**

Azərbaycanın milli mədəniyyətinin və milli kulinariyasının təbliği, maddi və mənəvi mədəniyyətimizin qorunması və inkişaf etdirilməsi baxımından bu festival son dərəcə böyük əhəmiyyət kəsb edir.

Mənəvi dəyərlərin qorunmasında və təbliğində əvəzsiz rolu olan Qəbələ III Beynəlxalq Mürəbbə Festivalının iştirakçılarına, hörmətli qonaqlarımıza bir daha xoş gəlmişsiniz deyir, festivalın işinə uğurlar arzulayıram!

**Diqqətinizə görə təşəkkür edirəm.**